# Şirvanın azman aşığı

*Tale tərəqqidən salsa insanı,*
*Atılıb-düşməyin nə mənası var?*
*Bir bulaq gözündən qurusa onu*
*Min yerdən eşməyin nə mənası var?*

*Yüz rənglə naxış var, min yolla bəzə,*
*Sabah köhnələcək bugünkü təzə,*
*Taleyin hökmüylə bağlanan gözə*
*Qızıldan çeşməyin nə mənası var?*

*Hər kəsin taleyi xoş keçsə əgər,*
*Əyninə bez geysə, «atlas» deyərlər,*
*Bəxti kəm alimə nadan atsa şər*
*İnciyib küsməyin nə mənası var?*

*Əhməd, el məsəlin gəl eşit sən də,*
*Daş düşər qürbətə yük əyiləndə.*
*Zərdən şeş istəyib yek gətirəndə*
*Qovrulub-bişməyin nə mənası var?*

Bu qoşma onun müəllifi kimi məşhurdur. Dildə-ağızda dolaşır. Hikmət dolu bu misraları həyəcansız oxumaq mümkün deyil. Əslində, digər şerləri – gəraylı, qoşma, təcnis və müxəmməsləri də eyni dərəcədə maraqlı və ürəyəyatımlıdır.

*İstər qadın, istər kişi,*
*Ağıldan kəm, gic olmasın.*
*Can söyləsin, can eşitsin,*
*Heç kəs ilə öc olmasın.*
(«Olmasın»)

*Mən nə deyim bəxt yazana,*
*Yaxşını verir yamana,*
*Gül üzündə şeh-dumana,*
*Çənə baxmağa gəlmişəm.*
(«Gəlmişəm»)

*Göy söyüdə calaq vursan almanı,*
*Söyüd yarpağına çevrilər tamı,*
*Gədanı eyləsən dünya sultanı,*
*Təxtinə min ziynət vurmağa dəyməz.*
(«Dəyməz»)

*Şit-şıltaq sözlərin məqamında sus,*
*Ürək bulandırar çörək də duzsuz,*
*Ağızdan çıxmamış sözün vecin pus,*
*Göz cana yatmasa, danışma dilim!*
(«Dilim»)

Bütün bu sətirlərdə ağır yığnaqlar, sazlı-sözlü məclislər yola vermiş Aşıq Əhməd gəzib-dolaşdığı vətənimizin gözəlliklərini vəsf etmiş, dərdlərimizi qələmə almış, görüb-götürdüklərini özündən sonra gələnlərə çatdırmaq istəmişdir.

Aşıq Əhməd Ədil bəy oğlu Rüstəmov 1920-ci ildə Kürdəmirin Carlı kəndində anadan olmuşdur. Uşaqlığı çox ağır keçib. Bu haqda aşıq bunları söyləyir:

«Atam Kür çayı bölgəsində varlı adamlardan olub. Bu var-dövlət ona ata-babasından miras qalmışdı. Beşqovaq bağı, Əncil bağı, İydəli qoruq, Çərəyüş, Böyük Ağ Calanın bir hissəsi Ədil bəyin torpaqları idi. Atamın Şıxtəpəsində mal-qara üçün qışlağı, Kürün o tayında – Xəlfə gölü ətrafında lobya, küncüt, darı, sılıf əkmək üçün torpaq sahəsi vardı. İndi görün belə bir xeyrül əməl sahibinin son aqibəti necə oldu? 1924-cü ildə vəzifə başına keçənlər atamı «xalq düşməni» adı ilə qollarını bağlayıb Kürdəmirə apararkən yarı yolda Muradxan kəndi yaxınlığında, seyrək qamışlıqda güllə ilə vurub öldürdülər.

Sonra da bütün var-dövlətimizi yığıb apardılar. Özümüzü də evdən bayıra atdılar. Bir camış, bir inək verdilər.

Mehdiqulu adlı bir kişinin talvarının altında yaşadıq. Yan-yörəsini qamışla-avarla çəpərləyib toparladıq. Novruz bayramında heç bir şey tapmayan anam qanovuz pəncərə pərdəmizi qoparıb mənə bir köynək tikib geyindirdi, cibimə arpa qovurğası töküb, bağda çal-çağır məclisinə apardı. Mənə də tapşırdı ki, qovurğanı xəlvət ye, heç kəs bilməsin ki, arpa qovurğası yeyirsən...»

Burada haşiyə çıxaraq bildirək ki, bütün bunlar 4-5 yaşlı Əhmədin gözləri qarşısında baş verir. Maddi və mənəvi sıxıntılar içərisində yaşayan yeniyetmə bunların heç birini unutmur. Bu

onun zəngin yaradıcılığına da təsirsiz ötüşmür.

Aşıq sonrakı həyatı barədə aşağıdakıları söyləyir: «1930-cu ildə ibtidai məktəbə qəbul edildim. Dərd bizi ozana, Qazana döndərmişdi. Şeirə, sənətə çox marağım var idi. Üçüncü sinifdə ikən ilk şeirimi yazdım.

*Qara neft ölkəmizi*
*Doldurur.*
*Allah birin yıxır,*
*Birin qaldırır.*

1936-cı ildən başlayaraq taxtadan bir saz qondarıb qonum-qonşuda, bayramda, çilə çıxaran qızların məclisində çalıb-oxuyardım. Anamın gözəl hafizəsi vardı. Ərəbxana kəndindən Aşıq Zeynəlabdin bizim kəndə toy məclisinə gəlib çalıb-oxuduğu sözləri, oxuduğu havaları dərhal əzbərləyərdi. «Seydi və Kərəm» dastanını da mən anamdan öyrənmişəm.

Saz götürüb ilk dəfə elədiyim toy Carlıda Nəsir adlı bir oğlanın toyu olub. Ondan sonra anam məni öz həmkəndlimiz balabançı, saz çalmağı bacaran Əli dayının yanına apardı. Bir tağar buğdaya, bir camış düyəsinə, üç batman lobyaya qiymət kəsdilər ki, məni öyrətsin. Əli dayı mənə «Ordubad gözəlləməsi»ni, «Şəşəngi»ni, «Şirvan gözəlləməsi»ni, «Qobustan pitrolları»nı, Osmanlı havalarını çaldırdı, oxutdu, oynatdı. Bircə «Kərəmi» havasından başqa. Ustad nə qədər çaldı, oynadı, bacarmadım. Dedi sol ayağının pəncəsini yerə qoy, sağ ayağının baş barmağı üstündə axsaya-axsaya irəli get. Nə isə alınmadı. Əsəbi halda bayıra çıxdı. Mən elə bildim ki, çıxıb evlərinə getdi. Dedim, ay dad-bidad, xərcim batdı. Handan-hana gəldi, dedi sağ ayağını qaldır. Mən ayağımı qaldıran kimi dabanıma nə isə xırcadan sancıldı. Dedi indi götür sazı. O, balabanla, mən sazla. Dabanımı yerə basa bilmirdim. Sən demə dabanıma batırdığı innab tikanıymış. Ondan sonra hər şey öz qaydasına düşdü...»

1941-ci ildə Aşıq Əhməd müharibəyə gedir. Bir il sonra yaralanaraq arxa cəbhəyə qayıdır. 27 yaşlı gənc gəldiyi gündən Kürdəmirdə aşıqlar ansamblına rəhbərlik edir. Bu illər ərzində onun 300-dək tələbəsi olur. 1965-ci ildə «Azərnəşr»də ilk kitabı – «Sazımın telləri» işıq üzü görür. 1980-cı ildə «Əlləriniz yorulmasın» kitabı «Yazıçı» nəşriyyatında nəşr edilir. Bütövlükdə, aşığın yüzlərlə şeiri, 20 dastanı çap olunub.

Dağlıq Qarabağ hadisəsindən bəri bütün cəbhə boyu səngər-səngər gəzib. Cəbhə üçün, yaralı döyüşçülər üçün yardımlar edib.

Respublikanın Əməkdar Mədəniyyət işçisi Aşıq Əhmədin şeirləri onun hərtərəfli biliyindən, kamilliyindən xəbər verir.

Aşıq Əhməd yaradıcı sənətkardır. O, Şirvan aşıq məktəbinin ənənələrini davam etdirir, saz havalarını təkmilləşdirir və özünəməxsus bir ustalıqla hikmətli fikirlər, yaddaşlarda qala bilən nəsihətamiz misralar, beytlər, bəndlər söyləyir:

***Cahandan köçənlər qayıtmır bir də,***
***Min surət çürüyür bir qarış yerdə,***
***Təqvimlər, saatlar, dəqiqələr də***
***Ömrü parçalayıb bölmək üçündü.***

Aşığın sazından, avazından nə varsa keçmişdə qalır. Gələcəkdə onu yaşadan söz sərvətidir. Bu mənada, Aşıq Əhməd də xoşbəxt sənətkarlarımızdandır.

**Əhliman RƏHİMOV,**
**ADMİU-nın baş müəllimi,**
**əməkdar mədəniyyət işçisi**

**Ədəbiyyat**

1. Aşıq Əhməd. İtən sazım. B. «Şur» - 1995.
2. Aşıq Əhməd. Sazımın telləri. B. «Azərnəşr» - 1965.
3. Aşıq Əhməd. Əlləriniz yorulmasın. B. «Yazıçı» - 1980.